AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Muzeyşünaslıq kafedrası
"Tətbiqi muzeyşünaslığın nəzəri əsasları"
fənni üzrə
Magistr pilləsi üçün

Proqram

Bakı – 2018

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Muzeyşünaslıq kafedrası

"Tətbiqi muzeyşünaslığın nəzəri əsasları"

fənni üzrə

Magistr pilləsi üçün

Proqram

060301 Muzeyşünaslıq, arxiv və abidələrin qorunması

Fənnin kodu MİF-B05-2

ADMİU-nun Elmi Şurasının 30 mart 2018-ci il tarixli 06 saylı protokolu ilə təsdiq olunmuşdur.

Bakı – 2018

Tərtib edənlər: **Elfira Hacıbaba qızı Məlikova**

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

Aygün Rüstəm qızı Eyvazlı
Kulturologiya üzrə fəlsəfə doktoru, baş müəllim

Elmi redaktor: **Yeganə Məhəmməd qızı Eyvazova**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Rəyçilər: **Mira Arif qızı Məmmədxanova**

Azərbaycan Xalça Muzeyinin baş mühafizi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru

İlhamə Hicran qızı Səfərova

Kulturologiya üzrə fəlsəfə doktoru, dosent

© ADMİU

İZAHAT VƏRƏQİ

Qədim və şərəfli tarixə malik, müstəqilliyinin ilk onilliklərini, yəni gənclik dövrünü yaşayan, iqtisadi-siyasi və elmi-mədəni sahələrdə özünü dünyanın qabaqcıl ölkələrinə inteqrasiya edən Azərbaycanda elmin, sənətin inkişafına böyük önəm verilməklə bərabər, onların dünya standartlarına çatması üçün geniş şərait yaradılmışdır. Respublikamızın əldə etdiyi müvəffəqiyyətlər həyatın hər bir sahəsində- ictimai-siyasi, sosial – iqtisadi, mədəni-quruculuq fəaliyyətində özünü göstərir. Belə yüksəliş muzeyşünaslıq sahəsində də aşkar görünməkdədir. Azərbaycan muzeyşünaslığı, muzey işinin təşkili, muzeylər şəbəkəsinin surətli inkişafı dövlətin yaxından qayğısı sayəsində ümumdünya muzeylər səviyyəsinə yüksəlmə imkanına malik olmuşdur. Bu yüksəlişə Azərbaycan xalqının ümumilli lideri H.Ə.Əliyevin müdrik siyasəti, tarixi şəxsiyyətlərimiz, ədəbiyyat və incəsənət xadimlərimiz, xalqımızın ləyaqətli övladlarının adı ilə bağlı muzeylərin, abidələrin, xatirə komplekslərinin açılması barədə sərəncamları və tarixi qərarları bariz nümunədir. Prezident İlham Əliyevin və YUNESKO, İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətləri imkanı yaratmışdır.

Muzey işinə dövlət tərəfindən artan qayğı və diqqət sayəsində son zamanlar respublikada muzeylər şəbəkəsi genişlənir, tarixi yaddaşımızı, nəsillərdən-nəsillərə yadigar qalan maddi-mənəvi irsimizi və zənginliklərimizi qoruyan və özünəməxsus xüsusiyyətləri ilə fərqlənən muzeylərə respublika rəhbərliyinin qayğısı öz müsbət nəticəsini göstərir. Belə ki, tarixi mədəniyyət abidəsi sayılan muzeylərin binaları bərpa edilir, onlar müasir tələblərə cavab verən elmi-texniki avadanlıqla təchiz olunur, maddi-texniki bazaları gücləndirilir, elmi-təqdiqat işlərinin yüksək səviyyədə həyata keçirilməsi üçün şərait yaradılır, muzey işinin elmi-ictimai fəaliyyətinin, nəzəriyyə və metodikasının dünya elmi səviyyəsində aparılmasına imkanlar genişlənir.

Tətbiqi muzeyşünaslığın nəzəri əsasları" proqramı "Muzeyşünaslıq" ixtisasına yiyələnən magistr təhsili alan tələbələr üçün nəzərdə tutulmuşdur. "Muzeyşünaslıq" ixtisasında kursun tədrisinə ümumi – 45 saat (30s. müh., 15 s sem. 6 kredit) ayrılmışdır.

	Mövzuların adı	Müh.	Sem.
1.	Tətbiqi muzeyşünaslığın quruluşu	2	
2.	Tətbiqi muzeyşünaslığın tədqiqat metodları	2	2
3.	Tətbiqi muzeyşünaslığın təşəkkülü və inkişaf mərhələləri	2	
4.	Azərbaycanda tətbiqi muzeyşünaslığın yaranma səbəbləri, inkişafı və mövcud vəziyyəti.	2	2
5.	Elmi metodikaların tədqiqi və tətbiqinin nəzəri əsasları	2	
6.	Ümumi metodikalar	2	2
7.	Xüsusi metodikalar	2	
8.	Muzey kollektivinin mərhələli fəaliyyətinin tətbiqdə əhəmiyyəti	2	2
9.	Tətbiqi muzeyşünaslığın elmi-nəzəri tədqiqində muzey mühitinin əhəmiyyəti	2	
10.	Muzey fəaliyyətinin təşkilinin tətbiqi muzeyşünaslıqda rolu	2	2
11.	İdarəetmə tətbiqi muzeyşünaslığın əsas mexanizmi kimi	2	
12.	Sərgi fəaliyyətinin tətbiqdə yeri	2	2
13.	Muzey tədbirlərinin tətbiqi əhəmiyyəti	2	
14.	Tətbiqi muzeyşünaslıqda fond işinin elmi-nəzəri tədqiqi	2	2
15.	Tətbiqi muzeyşünaslıqda texniki vəsaitlərin əhəmiyyəti	2	1
	Cəmi: 45 saat	30	15

Mövzu 1. Tətbiqi muzeyşünaslığın quruluşu

Tətbiqi muzeyşünaslığın bölmələri arasında sıx qarşılıqlı əlaqə." Elmi metodika" anlayışı. Elmi metodikaların növləri. Elmi metodikaların növlərinin bir-birini şərtləndirməsi.

Tətbiqi muzeyşünaslığın inkişafı və təkmilləşməsində texnikanın rolu.Texnika vasitəsilə tədbirin təsirliliyinin artırılması, texniki tərəqqi və tətbiqdə bu prosesin həlledici əhəmiyyəti.

Təşkilatçılığın mühüm rolu. Təşkiledilmənin peşəkarlıqdan asıllığı. Tətbiqi muzeyşünaslıqda idarəetmənin əhəmiyyəti. Təşkiledilmə ilə idarəedilmə arasında qarşılıqlı əlaqə. İdarəetmədə yeni üsullar, formalar, metodlar.

Bölmələrarası qarşılıqlı əlaqəliliyin qanunauyğunluğa çevrilməsi. Bölmələrin bir-biri ilə qarşılıqlı əlaqədə inkişafı.

Mövzu 2. Tətbiqi muzeyşünaslığın tədqiqat metodları

Tətbiqi muzeyşünaslıqda tədqiqat metodlarından istifadənin vacibliyi. Elmi-ixtisas və pedaqoji ədəbiyyatdan istifadə üsulları. Dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, tədris-metodik vəsaitlər, metodik tövsiyələr, açıqçalar, kataloqlar, jurnallar və qəzetlərdə çap olunmuş problem əhəmiyyətli materialların, tezis və elmi-tədqiqatların elmi-nəzəri tədqiqi. Elmi-nəzəri ümumiləşdirmələr və nəticələrin əldə edilməsi.

Müşahidələrin elmi-nəzəri və tətbiqi əhəmiyyəti. Məqsədli müşahidələr. Müsahibələrin tətbiqi muzeyşünaslıqda əhəmiyyəti. Müsahibədə aktiv və passivlik. Sosioloji tədqiqatlarda mühitin seçilməsinin əhəmiyyəti. Eksperimentlərdə problem əhəmiyyətli anket-sorğu suallarından istifadə. Tədqiqat metodlarının qarşılıqlı əlaqədə mühüm əhəmiyyət kəsb etməsi.

Mövzu 3. Tətbiqi muzeyşünaslığın təşəkkülü və inkişaf mərhələləri.

Muzeylərin yaranması tətbiqi muzeyşünaslığın zəmini kimi. Avropada tətbiqi muzeyşünaslığın yaranması və inkişafı. Tətbiqi muzeyşünaslığın yaranma səbəbləri. Tətbiqi muzeyşünaslığın inkişafına təkan verən amillər.

XIX-XX əsrlərdə tətbiqi muzeyşünaslığın inkişafına təkan verən amillər. Bu dövrdə muzeyşünaslığın daha geniş vüsət alması. İtaliya, Fransa, Hollandiya, Belçika, Macarıstan, İngiltərə, Almaniya, Amerika, Rusiya, Azərbaycan və digər ölkələrdə tətbiqi muzeyşünaslığın inkişafı. Müasir dövr tətbiqi muzeyşünaslıq.

Mövzu 4. Azərbaycanda tətbiqi muzeyşünaslığın yaranma səbəbləri, inkişafı və mövcud vəziyyəti.

Azərbaycanda muzeylərin yaranması və tətbiqi muzeyşünaslığın təşəkkülü səbəbləri. Tətbiqi muzeyşünaslığın inkişafı. XX əsrdə Azərbaycanda tətbiqi muzeyşünaslıq. Ölkəmizdə tətbiqi muzeyşünaslığın mövcud vəziyyəti.

XX əsrin 20-50-ci illərində Azərbaycanda muzeylərin yaranması və tətbiqi muzeyşünaslığın əhəmiyyətli fəaliyyətinin həyata keçirilməsi. Azərbaycan tarixi muzeyində tədqiqatlar. 40-70-ci illərdə tətbiqi muzeyşünaslığın inkişafı. Memorial, xatirə-ev muzeylərinin tətbiqi muzeyşünaslığın inkişafında rolu.

Azərbaycanda tətbiqi muzeyşünaslığın mövcud vəziyyəti. Azərbaycan muzeyşünaslığının mənbələri və elmi-nəzəri tədqiqi.

Mövzu 5. Elmi metodikaların tətbiqi və tədqiqinin nəzəri əsasları.

Elmi metodikalar-tətbiqi muzeyşünaslığın əsas sütunu kimi. Elmi metodikaların qarşılıqlı əlaqəsi. Elmi metodikaların tətbiqi. Elmi metodikaların tədqiqinin nəzəri əsasları. Tətbiqi muzeşünaslıqda elmi metodikaların mühüm əhəmiyyəti. Elmi metodikaların növləri. Elmi metodikaların bir-birini şərtləndirməsi və qarşılıqlı əlaqəsi. Elmi metodikaların tətbiqi zamanı mühit və şəraitin nəzərə alınması. Elmi metodikaların tətbiqinin yaş xüsusiyyətində asıllığı. Metodikaların tətbiqinin muzeylərin profilindən asıllığı.

Mövzu 6. Ümumi metodikalar.

Ekspozisiyanın metodiki prinsipləri. Ekskursiya işinin prinsipləri. Muzey əşyalarının üçotunun metodikası. Muzey əşyalarının mühafizəsinin metodikası.

Ümumi metodikaların muzey fəaliyyətinin bütün sahələrini əhatə etməsi. Ekspozisiyanın bədii-memarlıq həllinin nəzəri-metodik prinsipləri. Ekskursiya işinin təşkili metodikası.

Ekskursiya işinin tədqiqinin nəzəri əsaslara istinadı. Ekskursiya işinin tədqiqində metodikalardan nəzəri əsaslarda istifadə edilməsi. Ekskursiya işinin prinsipləri.

Muzey əşyalarının uçot nəzəriyyəsi. Nəzəri müddəalar və mənbələrdən istifadə yolu ilə əşyaların uçotu. Uçot prosesində metodikalardan istifadə.

Muzey əşyalarının mühafizəsi işinin tədqiqində metodlardan istifadənin əhəmiyyəti. Muzey əşyalarını mühafizəsinin nəzəri əsasları. Nəzəri nəticələrin tətbiqi . Mühafizə işinin metodikalar vasitəsilə sistemləşdirilməsi.

Mövzu 7. Xüsusi metodikalar

Xüsusi metodikaların muzeyin profilinə görə təyin edilməsi. Xüsusi metodikalar arasında fərqlər. Xüsusi metodik tədqiqatların nəzəri əsaslara istinadı. Tarix, təbiət, incəsənət və digər profilli muzeylərdə uyğun metodik tədqiqatların problem xarakteri. Xüsusi metodik tədqiqatların muzeylərin profildaxili növlərinə görə tətbiqi.

Tədqiqat prosesində təhsil-tərbiyə fəaliyyətinə xüsusi diqqət verilməsi, muzey pedaqogikasının təşəkkülü, nəzəri əsasları, təsir sahələri, təhsilləndirici, tərbiyələndirici istiqamətləri, tədqiqat üsulları, tətbiqi, ziddiyyətlər.

Muzey psixologiyasının tədqiqinin nəzəri əsasları. Muzey estetikasının vacibliyi. Muzeyin daxili estetik mühiti. Muzey etikası. Muzeyin daxili etik davranış metodikasının nəzəri əsasları. Etik davranış normalarının gözlənilməsi. Muzey etikasının muzey pedaqogikası, psixologiyası, estetikası ilə qarşılıqlı tədqiqi.

Mövzu 8. Muzey kollektivinin mərhələli fəaliyyətinin tətbiqdə əhəmiyyəti

Muzey kollektivinin mürəkkəbliyi. Muzey kollektivinin mərhələli fəaliyyəti. Muzey kollektivinin təşəkkülü və fəaliyyətinin perspektiv məqsədə xidmət etməsi. Kollektivin fəaliyyəti üçün verilən tələblərin yerinə yetirilməsi üçün elmi-yaradıcı potensialının qarşılıqlı əlaqədə olması. Kollektivdə şəxsiyyətin inkişafı probleminin nəzəri tədqiqi məsələləri. Elmi-bədii, nəzəri, təcrübi, tərbiyəvi, elmi-pedaqoji və s. istiqamətli kadrların birgə fəaliyyət sisteminə əsaslanan kollektivin özündə mürəkkəb inkişaf prosesini ehtiva etməsi.

Mövzu 9. Tətbiqi muzeyşünaslığın elmi-nəzəri tədqiqində muzey mühitinin əhəmiyyəti.

Muzey mühitinin mahiyyəti, məzmunu və əhəmiyyəti. Muzey mühitində idraki proseslərin nəzəri tədqiqi. Muzey mühitində fəaliyyətin məqsədi.

İnkişafda bədii təsirin əhəmiyyəti ilə fərqlənən muzeylərin özlərinə məxsus mühitə malik olması. Muzey mühitində müvafiq əşyalar güclü elmi yaradıcı potensiala malik kollektiv tərkibinin məqsədyönlü vəzifələri. Muzey mühitinin hərəkətverici, istiqamətləndirici qüvvəsi-muzey işçiləri, canlandırıcı qüvvə olan tamaşaçılar, mənbə-əşyalar, eksponatlar, elmi-kütləvi fəaliyyətin əsası olan elmi-yaradıcı idrak.

Səmərəliliyin keyfiyyət dərəcəsinin muzey mühitinin xarakterlərindən aslılığı. Muzey mühitində elmi idrakla yaradıcı idrakın qarşılıqlı əlaqəsi. Muzey mühitində dərketmə prosesində idrak əməliyyatları, maraqlar, ünsiyyət, müstəqillik, fəallığın və s. əhəmiyyət kəsb etməsi. Muzey mühitində fəaliyyətin məqsədinin cəmiyyətin mövcud həyat şəraiti və tələbatından doğması.

Mövzu 10. Muzey fəaliyyətinin təşkilinin tətbiqi muzeyşünaslıqda rolu.

Muzey fəaliyyətinin təşkilində planlılıq. Muzey fəaliyyətində ardıcıllığa riayət olunması. Fərdi yanaşmanın nəzərə alınması. Fəaliyyətdə muzeyin elmi-yaradıcı potensialının nəzərə alınması. Fəaliyyətdə peşəkarlığın rolu.

Tətbiqi muzeyşünaslıqda fəaliyyətin təşkilinin əhəmiyyəti. Fəaliyyət prosesində müvafiq prinsiplərə əməl edliməsinin əhəmiyyəti. Fəaliyyətin təşkilinin elmi –nəzəri qiymətləndirilməsi. Təşkil edilmədə ardıcıllığın mahiyyəti. Planlılıq və fərdi yanaşmaya verilən tələblər. Təşkilatçılıqda elmi-yaradıcılıq potensialın qabaqcadan planlığa istinadən fəaliyyəti. Fəaliyyət prosesində elmi –nəzəri tədqiqat vasitəsilə qiymətləndirmə və

gələcək fəaliyyətin elmi nəzəriyyəsinin hazırlanması. Fəaliyyətdə elmiliyin əhəmiyyəti. Fəaliyyətdə peşəkarlığın mühüm rolu.

Mövzu 11. İdarəedilmə-tətbiqi muzeyşünaslığın əsas mexanizmi kimi.

İdarəedilmənin muzeyin profilinə uyğun qurulması. İdarəetmədə muzey rəhbərliyinin rolu və vəzifələri. İdarəetmədə bölmə və şöbə müdirlərinin fəaliyyəti. Digər qurumların idarəetmədə əhəmiyyəti.

Tətbiqi muzeyşünaslıqda idarəetmənin mahiyyəti və əhəmiyyəti. İdarəetmə prosesində təcrübənin əhəmiyyəti. İdarəetmədə peşəkarlığın rolu. İdarəetmədə müvafiq metod, vasitə ilə yollardan istifadə. Muzey rəhbərliyinin rolu və vəzifələri.

İdarəetmədə şöbə və bölmə rəhbərlərinin məqsəd və vəzifələri. İdarəetmə prosesində şöbə və bölmələrin qarşılıqlı əlaqələrin bir biri üçün imkan və şərait yaratması. İdarəetmədə qarşıya çıxan mənəvi-psixoloji və təcrübi çətinliklərin qarşılıqlı əlaqə vasitəsilə aradan qaldırılması. İdarəetmə zamanı ziddiyyətlilik. İdarəetmədə muzeyi əhatə edən ətraf mühitin köməyindən istifadənin qiymətləndirilməsi. Ətraf mühit və muzey arasında qarşılıqlı əlaqəliliyin idarəetməyə inkişaf etdirici təsiri.

Mövzu 12. Sərgi fəaliyyətinin tətbiqdə yeri.

Tətbiqi muzeyşünaslıqda sərgi fəaliyyətinin əhəmiyyəti. Daimi sərgilərin təşkilinin elmi-nəzəri və təcrübi əsasları. Sərgilərin təşkilində yeni metodlardan istifadə. Sərgi fəaliyyətinin elmi-nəzəri tədqiqi.

Sərgi-tətbiqi muzeyşünaslığın əsas fəaliyyət növü kimi. Sərgi işinin planlaşdırılması. Mühit və şəraitə, sosial duruma müvafiq mövzunun seçilməsi, sərgi üçün vacib eksponatların yerləşdirilməsi. Daimi sərgilər. Daimi sərgilərin təşkili metodları. Tədqiqat prosesində mühitin və şəraitin nəzərə alınması. Sərgilərin

təşkilində bədii-memarlıq işi. Ekspozisiyanın təşkili işi və tədqiqinin elmi –nəzəri əsasları.

Mövzu 13. Muzey tədbirlərinin tətbiqdə əhəmiyyəti

Muzey tədbirlərinin mahiyyəti və əhəmiyyəti, tətbiqi muzeyşünaslıqda əsas rolu. Tədbirlərin təşkili və keçirilməsinin elmi-nəzəri mahiyyəti. Muzeydaxili və muzeydənkənar tədbirlərin tədqinin elmi-nəzəri əsasları. Tədbirlərin qiymətləndirilməsinin əhəmiyyəti.

Muzey tədbirlərinin planlı və məqsədəuyğun təşkilinin mühüm əhəmiyyəti. Muzey tədbirlərində elmi-yaradıcı potensialın gücündən məqsədyönlü istifadə. Köməkçi vasitələrin əhəmiyyəti. Yaş xüsusiyyətinin nəzərə alınması. Tədbirlərin elmi-nəzəri mahiyyəti və qabaqcadan mühit şəraitin nəzərə alınması. Muzeydaxili və muzeydənkənar muzey tədbirlərinin nəzəri əsaslarda əvvəlcədən planlaşdırılması. Gecə, görüş, disput, viktorina, söhbət və s. təşkili metodları. Muzeyin klubları, muzey dərnəkləri. Muzey dərsləri və olimpiadaları. Muzeydənkənar tədbirlərdə mühitin imkan və şəraitdən maksimum istifadənin tətbiqdə mühüm əhəmiyyəti.

Muzey tədbirlərin elmi-nəzəri tədqiqi. Tədbirlərin tədqiqində müvafiq tədqiqat metodlarından istifadənin əhəmiyyəti. Tədbirdən sonrakı məqsədli müzakirələr.

Mövzu 14. Tətbiqi muzeyşünaslıqda fond işinin elmi-nəzəri tədqiqi.

Fond işinin təşkilində təcrübənin rolu. Fond işində elmi-nəzəri tədqiqatların mahiyyəti və əhəmiyyəti. Komplektləşdirmənin tətbiqi muzeyşünaslıqda əhəmiyyəti. Fondun mühafizəsinin elmi-nəzəri tədqiqi. Fond işinin tətbiqi muzeyşünaslıqda əhəmiyyətli yeri. Fond işinin məqsədyönlü təşkilində təcrübənin rolu. Mühafizə prosesinin elmi əsasları.

Mühafizə prosesində tədqiqatların vacibliyi.

Mövzu 15. Tətbiqi muzeyşünaslıqda texniki vəsaitlərin əhəmiyyəti

Tətbiqi muzeyşünaslıq və müasir texniki vəsaitlər. Texniki vəsaitlərin tətbiqi prosesində planlılıq və məqsədyönlülük. Tətbiqi muzeyşünaslıqda texniki vəsaitlərin yeri. Müasir muzey fəaliyyəti və müasir texniki mühit. Texniki vəsaitdən istifadənin elmi əsaslarda təşkili. Texniki vəsaitlərin tətbiqində ardıcıllıq, planauyğunluq, məqsədyönlülük. Elmi-nəzəri tədqiqatların texniki vəsaitdən istifadə zəminində mühüm əhəmiyyəti.

İstifadə edilmiş ədəbiyyat siyahısı

Azərbaycan dilində

1. Azərbaycanın bədii muzeyləri, Bakı.2002.
2. Azərbaycanın memorial xatirə ev muzeyləri. Dərslik 2008-ci il.
3. Azərbaycanın maddi mədəniyyəti, cild II, AMEA-nın nəşri, B. 1952
4. Azərbaycanın tarixi abidələri. AMEAN-nın nəşri, B. 1958
5. Azərbaycan Dövlət İncəsənət muzeyi (katoloq) B. 1958
6. Cəfərzadə İ.Qobustan qayaüstü rəsmləri B. 1973
7. Nizami Gəncəvi adına Azərbaycan ədəbiyyatı muzeyi. Qısa bələdçi. B. 1986
8. Qurbanova E. Dünya muzeyləri (kataloq), B.1995
9. Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan
10. Respublikasının Qanunu, B., 1998.
11. Muzeyşünaslıq (dərslik), B., "Mars-Print", 2002.
12. Muzeylər Haqqında Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan" qəzeti,
13. 24 mart 2000-ci il.
14. Bayramov A., Heydər Əliyev və muzeylərimiz, B.,1999.
15. Ağayev R. Əlizadə A., "Bədii xalq yaradıcılığının tarixilik və varislik", B.,

16.2003.

17.Ağayev R. Azərbaycan beynəlxalq mədəni əlaqələri. B."Mars-print", 2003

Rus dilində

1. Вопросы музейной работы. М., 1974
2. Игнатева В. И. Музееведение. Советские музеи. М., 1968.
3. Курлат Ф. Л. Научно-просветительная работа музеев. М.,1977.
4. Музееведение. М., 1988.
5. Очерки истории музейного дела в СССР. М.,1963.
6. Фигол Д. И Методика научной пропаганды и культурно-массовой и научно-просветительной работы музеев. М., 1974
7. «Советский музей». 1935, №1
8. Шаневский А. Основное звено музейной работы. «Советский музей», 1940, №2
9. Культурное строительство СССР. 1959.
10. История музейного дела в СССР. М., 1957.

Sərbəst mövzular

1. Tətbiqi muzeyşünaslığın tədqiqində texniki avadanlığın rolu
2. Azərbaycan tətbiqi muzeyşünaslığın mövcud vəziyyəti
3. Azərbaycanda muzeylərin yaranması və tətbiqində muzeyşünaslığın təşəkkülü
4. Tətbiqi muzeyşünaslığın inkişafına təkan verən amillər
5. XIX-XX əsrlərdə tətbiqi muzeyşünaslığın inkişafına təkan verən amillər
6. Elmi metodikalar tətbiqi muzeyşünaslığın əsas istiqaməti kimi
7. Ekspozisiyanın təşkili prinsipləri
8. Ekskursiya işinin prinsipləri
9. Muzeyin profilinə görə xüsusi metodikaların təyin edilməsi
10. Tətbiqi muzeyşünaslıqda elmi metodikaların tətbiqi
11. Muzey əşyalarının uçotunun metodikası
12. Müşahidələrin tətbiqinin muzeyşünaslıqda rolu
13. Muzey əşyalarının mühafizəsi metodikası
14. Ölkəmizdə tətbiqi muzeyşünaslığın mövcud vəziyyəti
15. Muzey pedaqogikasının təşəkkülü və mövcud vəziyyəti
16. Muzey psixologiyasının tətbiqinin muzeyşünaslıqda əhəmiyyəti
17. Muzey eksperimentlərinin əhəmiyyəti
18. Muzey estetikasının tətbiqinin muzeyşünaslıqda əhəmiyyəti
19. Tətbiqi muzeyşünaslıqda sosioloji tədqiqatların rolu
20. Tətbiqi muzeyşünaslıqda ziddiyətlilik
21. Muzey etikasının tətbiqinin muzeyşünaslıqda əhəmiyyəti

22. Tətbiqi muzeyşünaslığın tədqiqinin daxili ziddiyətliliyin rolu
23. Muzey mühiti və tətbiq prosesi
24. Muzey kollektivinin profilə uyğun formalaşması və fəaliyyətinin perspektiv məqsədə xidmət etməsi
25. Muzey kollektivinin mərhələli fəaliyyətin tətbiqində rolu

Çapa imzalanmışdır: 10.05.2018
Kağız formatı: 60x84 1/16
ADMİU-nun mətbəəsində çap edilmişdir.
Ünvan: Bakı şəh., H.Zərdabi küç., 39 a
Tel: (012) 434 – 50 – 04